# Qarabağa dair qiymətli kitab



**Oktyabrın 24-də Bakı Slavyan Univeristetində (BSU) "Qarabağın müsəlman azərbaycanlı elitası siyasi təlatümlər içərisində və müasirləşmə yolunda (1850-1940)" kitabının təqdimat mərasimi olub.**

Tədbir BSU-nun Azərbaycan ədəbiyyatı kafedrası və Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun birgə təşkilatçılığı ilə baş tutub. Müəllifləri Almaniyanın Berlin Hunboldt Universitetinin Azərbaycan tarixi kafedrasının rəhbəri, professor Yeva-Mariya Aux və dr. Rasim Mirzəyev olan kitab Azərbaycan Cümhuriyyətinin 100 illiyinə həsr olunub.

Tədbiri BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov açaraq kitabın elmi-siyasi əhəmiyyətindən ətraflı danışıb. O, alman dilində belə bir kitbın ərsəyə gəlməsini dünyanın Qarabağ həqiqətləri ilə tanış olmasında yeni bir addım kimi dəyərləndirib. R.Novruzov kitabın ensiklopedik mahiyyət daşıdığını, orada göstərilən hər bir faktın və rəqəmin rəsmi sənədə söykəndiyini qeyd edərək onun gələcək araşdırmalar üçün də tutarlı mənbə olacağını bildirib.

Sonra çıxış edən professor R.Qeybullayeva Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun son illərdə bir sıra çox önəmli layihələrə imza atdığını və bu əsərin də həmin layihələrdən biri olduğunu söyləyib. O, kitabın tezliklə dünyanın digər dillərinə tərcüməsinin vacibliyini vurğulayıb.

Tədbirdə universitetin Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin nəzdində beynəlxalq münasibətlər kafedrasının müdiri, professor Habil Məmmədov, "Mütərcim" Tərcümə və Nəşriyyat-Poliqrafiya Mərkəzinin icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru Əliş Ağamirzəyev, Pedaqoji fakültənin dekanı, professor Flora Naci və digərləri çıxış edərək kitabın müsbət məziyyətlərindən danışıb, öz arzu və təkliflərini dilə gətiriblər.

Sonda Almaniyanın Berlin Humboldt Universitetinin Azərbaycan tarixi kafedrasının rəhbəri, professor, kitabın həmmüəllifi Yeva-Mariya Aux və Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun icraçı direktoru, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru Elçin Babayev çıxış edərək tədbir iştirakçılarına öz qiymətli təklif və fikirlərinə görə dərin minnətdarlıqlarını bildiriblər.

**Zamin Məmmədov,**
***"İki sahil"***